# İlk zəfər ünvanı

**Bu** gün Suqovuşanın erməni işğalından azad olunmasından 4 il keçir. 30 il düşmən tapdağında olan Suqovuşanda indi Azərbaycan bayrağı dalğalanır. 2020-ci il oktyabrın 3-də Azərbaycan Ordusu Suqovuşandakı erməniləri süpürüb atdı.

Murovdağ silsiləsinin ətəyində, Tərtərçayın sahilində yerləşən, illərlə həsrətini çəkdiyimiz, uzaqdan baxıb köks ötürdüyümüz yurdun qapısını üzümüzə açdı. Vətən müharibəsinin 7-ci günündə Suqovuşan azadlığına, xalq isə doğma torpaqlarına qovuşdu.

1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam, Tərtər və Kəlbəcər rayonları arasında bölüşdürülmüşdü. Qədim adı Suqovuşan olan, amma sovetlər dönəmində Madagiz adlandırılan qəsəbə Tərtər rayonuna birləşdirilən yaşayış məntəqələrindəndir. Ermənilər Suqovuşanı işğal etdikdən sonra burada hərbi hissələr yaratmışdılar. 49971 saylı hərbi hissə Ermənistan ordusunun Qarabağdakı ən güclü hərbi hissələrindən biri hesab olunurdu. Bundan başqa, erməni ordusunun "6-cı müdafiə rayonu" kimi qeyd etdiyi 33651 nömrəli hərbi hissə də Suqovuşanda mövqe tuturdu. İndi ermənilərin həmin hərbi hissələri gorbagor olub, özü də birdəfəlik. Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin 77-ci tank taborunun 4 tankı məhv edilmiş, 3 tankı isə qənimət götürülmüşdür. Azərbaycan əsgərinin darmadağın etdiyi erməni ordusunun bir halqası olan o hərbi hissələrin hansısa bir "yaralı" tankı bu gün Bakıdakı Hərbi Qənimətlər Parkındadır.

Suqovuşanı Azərbaycanın "Brest qalası" da adlandırırlar. Savaşın ilk günlərindən Qarabağın bağlı qapısı Suqovuşanda açıldı. Bu səbəbdən də Suqovuşan həm də "Qarabağın azadlıq açarı"dır. Qəsəbə 44 günlük Vətən müharibəsində ilk azad edilən strateji məntəqə kimi tarixə düşüb. Və bununla Madagiz adı da gorbagor olub.

Əvəzində Suqovuşan azadlığına və tarixi adına qovuşub. Bundan böyük sevinc ola bilərdimi?! Prezident İlham Əliyev 2020-ci il oktyabrın 4-də xalqa müraciətində həmin sevinci belə ifadə etdi: "Dünən bizim qədim yaşayış yerimiz - Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını töküb. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi. Bu gün Azərbaycan xalqı sevinc içindədir".

Zəfərdən sonra Böyük qayıdışa gedən yollardan biri də Suqovuşandan başladı. İlk infrastruktur layihəsi yol çəkmək oldu. 28,8 kilometrlik Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu qısa vaxtda ikinci texniki dərəcəyə uyğun yenidən quruldu. Bu istiqamətdə növbəti layihə 22 kilometrlik Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yolunun inşasıdır. Prezident İlham Əliyev 2023-cü il martın 18-də Talış kəndinə və Suqovuşan qəsəbəsinə səfəri zamanı avtomobil yolunun açılışında iştirak etdi. Dövlət başçısına məlumat verildi ki, yeni avtomobil yolunun eni 19 kilometrlik hissədə 9, 3 kilometrlik hissədə 6 metrdir. İncəçay üzərində avtomobil körpüsü tikilib. Eni 14,5, uzunluğu 84 metr olan üç aşırımlı körpü 9 ballıq seysmiklik nəzərə alınmaqla inşa edilib. Layihə üzrə yolboyu avtobus dayanacaqları inşa edilib, hərəkətin normal təşkili üçün digər zəruri infrastruktur yaradılıb.

Suqovuşan su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi də sıradan fakt deyil. Xatırladaq ki, Suqovuşan su anbarı və magistral kanallar 1976-cı ildə istismara verilib. Su anbarının ümumi tutumu 5,86 milyon kubmetrə çatır. Bəndin üstdən uzunluğu 630, hündürlüyü 28, eni 10 metrdir. Tərtərçay və Turağayçaydan daxil olan su burada tənzimlənərək ümumi suburaxma qabiliyyəti saniyədə 70 kubmetr olan əsas magistral kanala, başlanğıcdan 5,2 kilometr sonra isə hər birinin suburaxma qabiliyyəti saniyədə 50 və 20 kubmetr olan sağ sahil və sol sahil magistral kanallarına verilir. Su anbarında yeni inzibati bina və gözətçi binası, təmir emalatxanası və nasosxana da tikilib.

Suqovuşanda təkcə su anbarının özü deyil, onun ətrafında salınmış istirahət parkı da diqqət çəkir. Ötən il oktyabrın 15-də açılışında Prezident İlham Əliyevin də iştirak etdiyi parkda əhalinin asudə vaxtının səmərəli təşkili üçün sahilboyu gəzinti cığırları salınıb, oturacaqlar, söhbətgahlar, uşaqlar üçün əyləncə meydançası, idman qurğuları quraşdırılıb. Ərazisi 7,5 hektar olan parkda həmçinin Turist İnformasiya Mərkəzi, kafe, üzən estakada, turistlərə xidmət göstərən nəqliyyat vasitələri üçün avtodayanacaq yaradılıb. Burada geniş yaşıllaşdırma işləri görülüb - 5 minə yaxın ağac və kol əkilib. Təbii ki, bunlar Suqovuşanı həm də turizm ünvanı edir. Söz düşmüşkən qeyd edək ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın 2022-ci ildə Suqovuşana səfəri zamanı Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməli qoyulmuşdur.

Suqovuşan bu gün azad və bəxtəvər günlərini yaşayır. Çünki qəsəbədə həm də ilk yaşayış kompleksi salınır. Qarabağ İqtisadi rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin şöbə müdiri Leyla Sarabi burada 5 mərtəbəli 5 binanın tikintisinin yüksək sürətlə davam etdiyini deyir: "Binalar 190 mənzildən ibarət olacaq. Mənzillərin 1, 2, 3 otaqlı olması nəzərdə tutulur. İnsanların rahatlığı üçün əlavə infrastruktur da yaradılır. Binalar tikilib başa çatdıqdan sonra ətrafda yaşıllıqlar salınacaq, uşaqlar üçün oyun meydançası və söhbətgahlar da istifadəyə veriləcək. 144 şagirdlik məktəbin inşası artıq tamamlanıb. Ərazidən keçən Tərtər-Talış yolu əsaslı təmir edilib. Həmçinin qəsəbəni elektrik enerjisi ilə təmin etmək üçün "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su-elektrik stansiyaları qurularaq istifadəyə verilib".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 3 oktyabr (№ 216).- S.11.